Respublika.- 2019.- 3 noyabr.- S.1.

# Qarşıya qoyulmuş hədəflər Azərbaycanın dayanıqlı inkişafına hesablanıb

## *Dövlət başçısı vurğulayıb: “Bizim əsas vəzifəmiz qeyri-neft sektorunu inkişaf etdirmək və məşğulluğu artırmaqdır”*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu daxili və xarici siyasətin sayəsində ölkəmiz dünyanın sabit və dayanıqlı inkişaf edən dövlətləri sırasında yer almışdır. Dünyanın bir çox ölkələrini maliyyə-iqtisadi böhranın bürüməsi müşahidə olunsa da, respublikamızın bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdir. Oktyabrın 15-də dövlət başçısının yanında keçirilən iqtisadi müşavirədə bu barədə ətraflı söhbət açılıb. Bildirilib ki, 2019-cu ilin 9 ayının sosial-iqtisadi göstəriciləri müsbətdir. Həyata keçirilən kompleks tədbirlər və köklü islahatlar nəticəsində bu dövrdə Ümumi Daxili Məhsul 2,5 faiz artıb.**

Qeyri-neft sektorunun payı 60,7 faiz təşkil edib, sənayedə 1,7 faiz, qeyri-neft sənayesində isə 15,6 faizlik məhsul istehsalının artımına nail olunub. Toxuculuq sənayesi 39,2 faiz, kimya sənayesi 20,6 faiz, tütün məmulatları istehsalı 78,5 faiz, qida məhsulları istehsalı 15,1 faiz, içki istehsalı 40,4 faiz, ağac emalı və istehsalı 99 faiz, mebel istehsalı 29, 5 faiz, kənd təsərrüfatı 7,1 faiz, rabitə xidməti 16,4 faiz artıb.

Bu ilin yanvar-sentyabr aylarında əsas kapitala 10,1 milyard manat sərmayə yönəldilib ki, bunun da 6,3 milyard manatı qeyri-neft sektoruna, o cümlədən 1,2 milyard manatı qeyri-neft sənayesinə yatırılıb. İnflyasiya 2,6 faiz təşkil edib, ərzaq məhsulları 3,5 faiz, qeyri-ərzaq məhsulları 1,3 faiz, xidmətlər 2,4 faiz bahalaşıb. Əhalinin gəlirləri 6,7 faiz artıb ki, bu da inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir.

2019-cu ilin 9 ayında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycanın xarici ticarət dövriyyəsi 13,8 faiz artaraq 25,3 milyard ABŞ dolları, xarici ticarət saldosu müsbət 4,5 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft ixracı 15,5 faiz artmaqla 1,4 milyard ABŞ dollarına çatıb, sənaye məhsullarının ixracında 13,1 faiz, kənd təsərrüfatı və emalı məhsullarının ixracında 18,6 faiz artıma nail olunub. Bu dövrdə 186 ölkə ilə ticarət əlaqələri aparılıb ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 5,7 faiz çoxdur. Xarici iqtisadi fəaliyyətlə məşğul olanların sayında 81,4 faiz artım müşahidə olunub, ixrac məhsul çeşidlərinin sayı artaraq 2780-ə çatıb.

Qeyd edək ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev iqtisadi müşavirədə cari ilin üç rübündə sosial-iqtisadi inkişaf haqqında belə deyib: “Doqquz ayın sosial-iqtisadi göstəriciləri müsbətdir. İqtisadi artım təmin olunub. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu, onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir. Əlbəttə, biz istərdik ki, artım daha da yüksək olsun. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar, potensial var. Sadəcə olaraq, biz bu potensialdan maksimum səmərə ilə istifadə etməliyik”.

2019-cu ilin 9 ayı ərzində ölkəmizdə iqtisadi sahə üzrə əldə edilən göstəricilər onu deməyə əsas verir ki, iqtisadi inkişafı şərtləndirən islahatlar ildən-ilə dərinləşdirilir və bu istiqamətdə işlər uğurla gedir. Çünki son illər ölkəmizdə yaradılmış böyük iqtisadi potensial və aparılan məqsədyönlü islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların təşviqi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixracının stimullaşdırılması və digər tədbirlər iqtisadiyyatın davamlı və dayanıqlı inkişafını təmin edib.



Son illər Azərbaycanda uğurla aparılan iqtisadi islahatları beynəlxalq maliyyə qurumları və reytinq agentlikləri - Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu, Davos Ümumdünya İqtisadi Forumu və başqaları yüksək qiymətləndirir. Məsələn, 2017-ci ildə Azərbaycan Dünya Bankının nüfuzlu “Doing Business” hesabatında 65-ci pillədə qərarlaşmışdı. Bir il sonrakı ildəki hesabatda isə 8 pillə yüksələrək 57-ci yerə qalxıb. Bu hesabatda 190 ölkənin biznes mühiti qiymətləndirilmişdir. Həmin hesabatda Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi təqdim edilib. Bir il sonra “Doing Business 2019” hesabatında isə ölkəmiz 190 dövlət arasında 25-ci yeri tutub. Bu yaxınlarda isə respublikamız haqqında daha bir xoş xəbər yayılıb. Belə ki, “Doing Business 2020” hesabatında Azərbaycan daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilib.

Dövlətimizin başçısı iqtisadi müşavirədə bu barədə deyib: “ Hesabatdan bəzi məqamları mən Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Bildiyimiz kimi, burada rəqabətqabiliyyətliliklə bağlı bir çox meyarlar mövcuddur, həm ictimai-siyasi vəziyyət, həm də cinayətkarlığa qarşı mübarizə, iqtisadi islahatlar, sosial islahatlar, infrastruktur və sair. Beləliklə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə Azərbaycan dünyada 18-ci yerdədir. Deyə bilərəm ki, bu hesabat dünyanın 141 ölkəsi arasında keçirilən tədqiqatın nəticələri arasında hazırlanıb dərc olunmuşdur. Polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə Azərbaycan 30-cu yerdədir. Mülkiyyət hüquqlarının qorunması sahəsində bizim yerimiz 37-cidir. Hökumətin, yeni dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan, fikir verin, dünya miqyasında 10-cu yerdədir.

**(davamı 2-ci səhifədə)**

Respublika.- 2019.- 3 noyabr.- S.2.

# Qarşıya qoyulmuş hədəflər Azərbaycanın dayanıqlı inkişafına hesablanıb

## *Dövlət başçısı vurğulayıb: “Bizim əsas vəzifəmiz qeyri-neft sektorunu inkişaf etdirmək və məşğulluğu artırmaqdır”*

**(əvvəli 1-ci səhifədə)**

Yəni bu onu göstərir ki, düşünülmüş uzunmüddətli siyasət Azərbaycanda ən yüksək səviyyədə həyata keçirilir. Rəhbərliyin dəyişikliklərə, yeni islahatlara meyillilik səviyyəsinə görə biz dünyada 5-ci yerdəyik. Nəqliyyat infrastrukturuna görə 31-ci yerdəyik. Yol infrastrukturuna görə 27-ci yerdəyik. Biz keçən hesabatda 34-cü yerdə idik, indiki hesabatda 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Dəmir yollarının səviyyəsinə görə 34-cü yerdəyik. Nəqliyyat xidmətlərinin səmərəliliyinə görə 12-ci yerdəyik. Elektrik enerjisinin əlçatanlılıq əmsalına görə biz dünyada ikinci yerdəyik... Fəal əhalinin rəqəmsal qabiliyyətinə görə 19-cu yerdəyik. Bu, xalqımızın istedadını və mütərəqqi meyillərə yaxın olduğunu göstərir. Biznesi başlamaq baxımından biz 8-ci yerdəyik və bu rəqəmlər əlbəttə ki, həqiqəti əks etdirir” .

Hesabatlardan göründüyü kimi, Azərbaycan bütün sahələrdə yüksək nailiyyətlərə imza atır, müasir çağırışlara cavab verən islahatların aparılması, görülən işlərin nəticəsi müvafiq nüfuzlu beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirilir. Ən böyük dəyər isə xalqın verdiyi qiymətdir. Onu da xüsusi vurğulayaq ki, bu yaxınlarda aparılan sorğuya əsasən əhalinin böyük əksəriyyəti Azərbaycan rəhbərliyinin apardığı siyasəti birmənalı şəkildə dəstəkləyir. Çünki Azərbaycan 2004-2019-cu illərdə möhtəşəm bir yol keçmişdir. Bu müddətdə iqtisadiyyatımız 3,4 dəfə artmışdır. Ölkənin əsas maliyyə mənbəyi neft-qaz sektoru olduğu üçün bu sahə daha yüksək templə inkişaf etmişdir. Son illər isə iqtisadiyyatımızın neftdən asılılığının azaldılması istiqamətində ciddi işlər aparılır. Bu məqsədlə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı əsas prioritet kimi qarşıya qoyulmuşdur. Regionların sosial-iqtisadi inkişafına dair üç Dövlət Proqramının uğurla icra olunması ölkə həyatına böyük töhfələr vermişdir. Bu proqram bütün regionları əhatə etməklə bölgələr, demək olar ki, büsbütün simasını dəyişmişdir. İnsanların həyat səviyyəsi qat-qat yüksəlmişdir. Əməkhaqları, pensiyalar, müavinətlər, digər sosial ödəmələr bir neçə dəfə artmışdır. Son 16 ildə Azərbaycanda yoxsulluğun səviyyəsi 10 dəfəyə yaxın aşağı düşmüşdür, hazırda bu rəqəm 5 faiz təşkil edir. İşsizliyin səviyyəsi də elə bu qədərdir. Çünki bu sahədə mühüm addımlar atılır, yeni iş yerləri açılır, özünüməşğulluq proqramı həyata keçirilir. Bu inkişafı, bu tərəqqini, firavan yaşayış tərzini hər kəs öz gündəlik həyatında görür.

Hazırda ölkə iqtisadiyyatının 85 faizi özəl sektorda formalaşıb. Doqquz ayda qeyri-neft sektoru 3,5 faiz, kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Dövlət başçısı nitq və çıxışlarında bəyan edib ki, ölkəmizin uğurlu dayanıqlı iqtisadi inkişafı bundan sonra da özəl sektorun hesabına təmin edilməlidir. Bunun üçün isə inhisarçılığa qarşı mübarizə mütəşəkkil xarakter almalı, biznes dairələri üçün daha yaxşı şərait yaradılmalıdır.

Xüsusi vurğulamaq lazımdır ki, son bir neçə ildə qeyri-neft sektorunun hesabına ixracyönümlü məhsulların çeşidi və həcmi artmışdır. Bu işi təşkil etmək üçün dövlət başçısı “Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında” 2017-ci il 26 yanvar tarixli fərman imzalamışdır. Hazırda bir çox dünya dövlətlərində Azərbaycanın ticarət nümayəndiliyi və “Ticarət ev”ləri fəaliyyət göstərir. Milli məhsullarımız “Made in Azerbaijan” brendi ilə ixrac bazarlarında tanıdılır və satışı təşkil olunur. Qarşıya qoyulan əsas məqsədlərdən biri də biznes qurumlarına ölkəmizdə istehsal olunan ixracyönümlü malları xarici bazarlara çıxarmaq və satışını təşkil etmək üçün şərait yaradılması, kömək göstərilməsi və bu sahədə şəffaflıq təmin edilməsidir. Mütəxəssislər proqnazlaşdırırlar ki, 2020-ci ildə qeyri-neft ixracında 20 faiz artım gözlənilir.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev yanında keçirilən iqtisadi müşavirədə həm də qarşıda duran hədəfləri açıqlamış və bununla bağlı tapşırıqlarını vermişdir. Bu sırada iqtisadi dinamizmi şərtləndirən islahatların dərinləşdirilməsi, qeyri-neft sektorunun sürətləndirilməsi hesabına yüksək iqtisadi artıma nail olunması, bu sahəyə daha çox xarici investisiyaların cəlb edilməsi, sosial-iqtisadi inkişaf proqnozlarının hazırlanması Sahibkarlığın İnkişafı Fondunun, bank sektorunun və investisiyaların qeyri-neft sektorunun tərəqqisində və məşğulluğun artırılmasında rolunun gücləndirilməsi, büdcə və xərclərinin səmərəliliyi ilə bağlı əsaslı təhlillərin aparılması, şəffaflığın təmin edilməsi və s. yer almışdır.

**Ramiz YUSİFLİ,**
**“Respublika”.**